**Azərbaycan Respublikasının**
**Xarici İşlər Nazirliyi**

Haraya: ***TƏMİMİ***
Məlumat üçün:
Göndərilmə nömrəsi: S/37-10078/02/17 Tarix: 26.04.17.
Sənəd göndərilir: elektron poçt
Vərəqlərin sayı: -1- Əlavə: 2 vərəq
Məxfilik qrifi Adi
Təciliyi: **Adi***
Vacibliyi: **Vacib***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən *"Azərbaycan alimləri diasporası"* informasiya sistemi yaradılması nəzərdə tutulur və bu səbəbdən, xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı alimlər haqqında məlumatların əldə olunmasında köməklik göstərilməsini rica edir.

Bununla, AMEA-nın müraciəti və sorğu forması baxılması üçün diqqətinizə təqdim olunur və görülmüş işlərlə bağlı Mərkəzin daim məlumatlandırılması xahiş olunur.

**Nazir müavini** **Mahmud Məmməd-Quliyev**

MHSİ-nin rəisi v.i.e. Əlimirzamin Əskərov

İcraçı Günay Rəhimova
*(#2326)*

25.04.17

*İstinad: 4/5856/17, 24.04.17 (01-5/255, 24.04.17)*

4/5856/12
24.04.17


AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ

THE PRESIDENT OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 30
Telefon: (994 12) 492 35 29, Faks: (994 12) 492 56 99
E-mail: president@science.az

AZ 1001, Baku, Istiglaliyyat st., 30
Phone: (994 12) 492 35 29, Fax: (994 12) 492 56 99
E-mail: president@science.az


№ 01-5/255

"21" 04 2017 il/y.

Azərbaycan Respublikasının xarici işlər naziri cənab Elmar Məmmədyarova

Hörmətli Elmar müəllim!

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramı çərçivəsində yüksək texnologiyalar üzrə elmi-texniki potensialın gücləndirilməsi istiqamətində xaricdə yüksək texnologiyalar sahəsində çalışan azərbaycanlı alim və mütəxəssislərlə əməkdaşlığın genişləndirilməsi, birgə tədqiqat və proqramların həyata keçirilməsi üçün tədbirlərin görülməsi vəzifələrinin həyata keçirilməsi də nəzərdə tutulmuşdur. Bu vəzifələrin həyata keçirilməsi istiqamətində "Azərbaycan alimləri diasporası" informasiya sisteminin işlənməsi qarşıya məqsəd kimi qoyulmuşdur. Belə bir sistemin işlənilməsi üçün xaricdə yaşayan azərbaycanlı alim və mütəxəssislərin fəaliyyəti haqqında dolğun informasiya əldə etmək zərurəti yaranmışdır.

Yuxarıda deyilənləri nəzərə alaraq, xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı alimlər haqqında məlumatların əldə olunmasına dəstək verməyinizi Sizdən xahiş edirik.

Əlaqə məlumatları: AMEA İnformasiya Texnologiyaları İnstitutu, AZ1141, Bakı şəhəri, B.Vahabzadə küç., 9A
tel.: (+994 12) 5390167, (+994 12) 5371897
e-mail: secretary@iit.science.az
www.ikt.az

Qoşma: Xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı alimlər haqqında sorğu forması – 1 vərəq.

Hörmətlə,

akademik Akif Əlizadə

Əlavə

**Xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı alimlər haqqında sorğu forması**

foto

| | |
|---|---|
| Adı | |
| Soyadı | |
| Atasının adı | |
| Təvəllüdü | |
| Anadan olduğu yer | |
| Bitirdiyi ali təhsil müəssisəsi | |
| Hal-hazırda yaşadığı ölkə | |
| Əsas iş yeri və ünvanı | |
| Əsas elmi nailiyyətləri | |
| Mükafatları | |
| Elmi, elmi-pedaqoji və digər fəaliyyəti haqqında məlumat | |
| Əlaqə məlumatları | |